# Xocalı qətliamına həsr olunmuş anım mərasimi






***Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında Xocalı soyqırımının 30- cu ildönümünə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə həmin hadisələr zamanı işgəncələrə məruz qalmış xocalılara həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonra Xocalı soyqırımında həlak olanların, həmçinin bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Xocalı faciəsini “dünyada analoqu olmayan soyqırımı” adlandıran YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov 30 il əvvəl – fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin qəddarlığından söhbət açdı. Dedi ki, o vaxt xarici havadarlarına arxalanan ermənilərin işğalçılıq əməlləri artırdı. Eləcə də, dünyada baş alıb gedən özbaşınalıq, ikili standartlar və qatı ermənipərəstlik üzdəniraq qonşumuzu daha da həyasızlaşdırmışdı. Belə bir vaxtda erməni faşistləri dünyanı lərzəyə salan Xocalı soyqırımını törətdilər.

Təşkilat sədri dedi: “Dünya birliyinin gözü qarşısında baş verən bu dəhşətli qətliam xüsusi qəddarlığı ilə seçilirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərini yerləyeksan etdi, dinc əhali güllələbaran edildi, canlarını güclə qurtaranlar qışın soyuğunda, qarda, şaxtada dağlarda, meşələrdə gizlənmək istədi. Əksəriyyəti soyuqdan donaraq öldü. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülmuş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmiş, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olmuşdur. Soyqırımı gecəsi 1275 nəfər dinc sakin girov götürülmüşdür və onlardan 150-sinin taleyi indi də məlum deyil. Bütövlükdə, Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində misli olmayan vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı cinayətdir”.

A.Süleymanov YAP Nəsimi rayon təşkilatında da uzun illərdir ki, “Xocalıya ədalət!” kampaniyası çərçivəsində müxtəlif silsilə tədbirlər keçirildiyini bildirdi. Qeyd etdi ki, xalqımız bu dəhşətli faciəni heç zaman unutmayacaq. Xocalı soyqırımına beynəlxalq hüquqi-siyasi qiymət verilməlidir.

Xocalı sakinləri, Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının professoru Mübariz Allahverdiyev və Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının professoru Qabil Əliyev ermənilərin qəddarlığından söhbət açdılar. Qeyd edildi ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ilk dəfə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verildi və faciənin təşkilatçılarının adları dünya ictimaiyyətinə açıqlandı.

Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Xocalı soyqırımının dünyada təbliğ olunmasında əvəzsiz xidmətləri diqqətə çatdırıldı. Qeyd olundu ki, xocalıların qanı yerdə qalmadı. Rəşadətli Azərbaycan Ordusu Vətən müharibəsində işğalçı Ermənistan ordusunu darmadağın edərək şəhidlərimizin qisasını aldı.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 24 fevral.- S.6.